## TƏRS ÜZÜNƏ

**Osman Fermanoğlu**

Bizi kim tərsinə bələdi belə,
Düzəlmək istərik tərsə düşərik.
Büküb yad dillərə təlidi gələn,--
Hey düz dolanarıq, tərsa düşərik.

Özümüzü atar odun içinə,
Suyun dayazını dərin bilərik.
Yazda buza gedər, qışda biçinə
Yollanar, illəri dərdə bələrik...

Ömürdü adlayan gözü yumulu,
Tanrı da adlatmır koru körpüdən.
Əl çəkən tapılmır, heç üzüsulu,-
Köhnə vərdişləri yoxdu tərgidən.

Tərsinə geymişik ömrü, tərsinə,
Çölümüz güləndə içimiz ağlar...
Uyub adamların qaz yerişinə,-
Uçruma sallanan köçümüz ağlar.

Çölə çıxararaq əyilən ömrü,
Yenə özümüzlə görüşərikmi?!
Görəsən, tərsinə geyilən ömrü,
Çevirsək yenidən düz düşərikmi?!

## SƏNSİZ

**Besti Berdeli**

Bəxtimin çiçəyi xəzana düşər
Ümidlər yarpaq tək tökülər sənsiz.
Həsrətdən əyilən bənövşə kimi,
Boynum əyri qalar, bükülər sənsiz.

Eşitsən gələrsən səsi, harayı
Ay mənim könlümün sevimli payı.
Zülümlə tikdiyim vüsal sarayı,
Hicranın əliylə sökülər sənsiz.

Unutdun,qoy deyim, batdın günaha
Kədər müftə gəldi, sevincim baha.
Küsərəm baş alıb gedərəm daha
Əlim bu dünyadan üzülər, sənsiz.

Könlümün sevdasız günləri başlar,
Yenə xəyalınla çatılar qaşlar.
Qüssənin dalıyca atdığım daşlar,
Qayıdıb yoluma düzülər, sənsiz.